# Milli-mənəvi dəyərlərimizi yaşadaq

(Əvvəli 3-cü səhifədə).

“Milli-mənəvi dəyərlər və azərbaycançılıq”. Bu ifadə hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yaratmışdır. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. Bu gün təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi fəaliyyətimizin mühüm istiqaməti olmalıdır.

Ulu öndərin ali ideyalarının gerçəkləşməsində Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Yüksək mənəvi-əxlaqi dəyərləri parlaq şəxsiyyətində cəmləyən Azərbaycan qadını kimi Mehriban xanım Əliyeva demokratik, hüquqi dövlət quruculuğu yolunda bütün varlığı ilə fəallıq göstərir. Əslində, nə vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi, tarixin hansısa mərhələsində unutduğumuz bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

Artıq bu gün ölkəmizdə dini bayramlar da digər bayramlar səviyyəsində qeyd olunur. Dövlətimizin bu sahədəki uğurlu siyasəti müstəqil Azərbaycanı dünyanın ən tolerant ölkələrindən biri kimi tanıtmışdır. Əlbəttə, tolerantlıq elə bir hissdir ki, onu insanlara zorla aşılamaq mümkün deyil. Başqa sözlə, qərar vermək, icbari tədbirlər görməklə insanlar tolerant olmur. Azərbaycan xalqı dözümlülük xarakterini neçə əsrlər boyu, müxtəlif insanlarla birgə yaşayıb, birlikdə mübarizə aparmaqla qazanıb. Bu, həm də xalqımızın qonaqpərvərliyindən, həyat gerçəkliklərini daha dərindən anlamasından, alicənablığından irəli gələn duyğudur. Öz dininə bütün varlığı ilə bağlı olan və sonsuz hörmət bəsləyən xalqımız başqa dinlərə də hörmət və ehtiramla yanaşır.

Bütün bunlar Azərbaycan xalqını dünyanın digər xalqlarından fərqləndirən amillərdir. Azərbaycan xalqının və dövlətinin qarantı cənab İlham Əliyevin “Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır” sözləri qazandıqlarımızın əsil mahiyyətini göstərir. Qazanılmış mill-mənəvi dəyərlərin qorunub saxlanıması üçün nələr edilməlidir? Bunun üçün ən yaxşı vasitə təbliğat və təhsildir.

Gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətində ardıcıl olaraq işlər görülməli, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilməlidir. Vətənpərvərlik tərbiyəsi öz vətəninə sevgi, məhəbbət hissinin, məsuliyyət hissinin, hər an öz vətəninin, öz xalqının mudafiəsinə qalxmağa hazırlığın formalaşmasıdır. Hamımız bir azərbaycanlı kimi milli-mənəvi dəyərlərimiz barəsində düşünərkən sevinir, qürurlanırıq. Dərindən düşünsək, bir daha şahidi oluruq ki, milli-mənəvi dəyərlərimiz həqiqətən bizim qürur mənbəyimizdir. Qeyd edək ki, Prezident İlham Əliyev dəfələrlə Azərbaycan xalqının hər zaman milli-mənəvi dəyərlərinə sadiq olduğunu söyləyib. Dövlət başçısının sözlərinə əsasən, məhz bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlayıb və bu gün, müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli-mənəvi dəyərlər üzərində həyata keçirilir.

**Zenfilə HÜSEYNOVA,**
**peşə məktəbinin psixoloqu.**

# Gənclər arasında Azərbaycançılıq məfkurəsi təbliğ olunur





“Türkiyə Universitetləri Məzunları” İctimai Birliyi (TUMİB) Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirdiyi “Gənclər arasında Azərbaycançılıq məfkurəsinin təbliği” adlı layihənin icrasını davam etdirir. Layihə çərçivəsində növbəti tədbir Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin təşkilatçılığı ilə Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində baş tutub. Yüz nəfərə yaxın gəncin iştirakı ilə keçirilən tədbir Azərbaycanın dövlət himninin səslənməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov iştirakçıları salamladı, təlim mövzusu haqqında məlumat verdi. Sonra Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğundan danışdı. Qeyd etdi ki, təmsil etdiyi təşkilat analoji tədbirlərin keçirilməsində həmişə yaxından iştirak edir.

Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov qəbələli gənclərin potensialını üzə çıxarmaq üçün müxtəlif layihələrin həyata keçirildiyini bildirib. E. Kazımov deyib ki, xarici ölkə vətəndaşları ilə sıx təmasda olduqları üçün turizm sektorunda çalışan insanların Azərbaycançılıq məfkurəsini daha dərindən öyrənməsinə ehtiyac var.

“Türkiyə Universitetləri Məzunları” İctimai Birliyinin (TUMİB) sədri Çingiz Bayramov öncə layihə haqqında məlumat verib. Bildirib ki, layihənin məqsədi gənclər arasında Azərbaycançılıq məfkurəsini daha çox təbliğ etmək, ölkəmizdə vətənpərvər ruhlu, ziyalı gənclərin yetişməsinə təkan verməkdir. Həmçinin Azərbaycançılıq ideologiyasının təbliği ilə bağlı konfranslar, şeir, mahnı, rəsm və respublikamızın gənc jurnalistləri arasında yazı müsabiqəsi keçirməkdir.

TUMİB sədri tədbir iştirakçılarını müsabiqələrdə yaxından iştirak etməyə çağırıb.

Layihənin eksperti, TUMİB-in İdarə Heyətinin üzvü Seymur Verdizadə gənclərin cəmiyyətin həyatdakı rolundan danışıb. Qeyd edib ki, gənclərin enerjisini doğru istiqamətə yönəltməklə daha çox uğur qazanmaq mümkündür. S. Verdizadə yeniyetmə və gəncləri yad ideologiyaların təsirinə düşməməyə çağırıb.

Daha sonra digər çıxış edənlər mövzu ilə bağlı öz fikirlərini bölüşüblər.

Sonda iştirakçıları maraqlandıran mövzular ətrafında müzakirələr aparıldı.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**
**Fotolar S. Umuyevindir.**

# Buğda və çəltik səpininə görə 17 milyon manatdan çox yardım ayrılıb

Yaxın günlərdə Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı istehsalçılarına yardımla bağlı iclas keçirib. İslasda kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına 40 manat yardım verilməsi nəzərdə tutulub. Bu məqsədlə 58 rayon (şəhər) komissiyasından daxil olmuş sənədlərə baxılıb.

Komissiya 58 rayon (şəhər) koomissiyası üzrə 129063 istehsalçıya 426277,44 hektar buğda və çəltik səpininə görə 17.051.097,60 manat məbləğində yardım ayrılması barədə qərar qəbul edib.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına yardımın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, «Kapital Bank» ASC-yə və aidiyyəti rayon (şəhər) icra hakimiyyətinə göndərilib.

# TANAP layihəsi Azərbaycana böyük uğur gətirəcəkdir

Bu günlərdə Türkiyənin Qars vilayətinin Selim rayonunda Transanadolu Qaz boru kəməri-TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin, eləcə də digər rəsmi şəxslərin iştirak etdiyi mərasimdə bildirilmişdir ki, bu layihəyə ən azı 45 milyard dollar vəsait qoyulacaqdır və Azərbaycanın 100 il ərzində inkişafına təminat verəcəkdir. Eyni zamanda bu layihə ölkəmizin həm bölgədə, həm də dünyada geosiyasi çəkisini artıracaqdır.

Boru kəmərinin ilkin buraxılışının ildə 16 milyard kubmetr qaz təşkil edəcəyi gözlənilir. Təqribən 6 milyard kubmetr Türkiyəyə, qalanı isə Avropaya tədarük ediləcək. Qaz Türkiyəyə 2018-ci ildə çatacaq, təxminən 2020-ci ilin əvvəlində Avropaya ötürüləcək.

Layihənin dəyəri 10-11 milyard dollar qiymətləndirilir. Azərbaycanın təsdiq edilmiş ehtiyyatları 2,6 trilyon kubmetr, gözlənilən ehtiyyatlar isə təqribən iki dəfə çoxdur. Politoloqlar, iqtisadçılar hesab edirlər ki, bu isə Azərbaycana böyük uğur gətirəcəkdir.

Azərbaycanın bugünki uğurlarının təməlində ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyası durur. 2014-cü ildə Bakıda “Cənub Qaz Dəhlizinin”, 6 ay sonra isə Qarsda TANAP layihəsinin qoyulması mühüm hadisə kimi qiymətləndirilir. Artıq qətiyyətlə demək olar ki, bu layihə XXI əsrin müqaviləsidir.